**2000-ci ilin dövlət büdcəsinin "Kiçik sahibkarlığa investisiya yardımı maddəsində nəzərdə tutulan vəsaitin bölüşdürülməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. 2000-ci ilin dövlət büdcəsinin "Kiçik sahibkarlığa investisiya yardımı" maddəsində nəzərdə tutulmuş vəsaitdən investisiya yardımı" maddəsində nəzərdə tutulmuş vəsaitdən investisiya yardımı göstərilməsi barədə Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsinin təklifi qəbul edilsin və investisiya yardımı göstəriləcək layihələrin Siyahısı təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu qərarla təsdiq edilmiş vəsaitin investisiya layihələrinin maliyyələşdirilməsi üçün ayrılmasını təmin etsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 2 noyabr 2000-ci il
200

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 2 noyabr tarixli 200 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**İnvestisiya yardımı göstəriləcək layihələrin
SİYAHISI**

| Sıra -si | Müəssisənin adı | Hüquqi ünvanı | Layihənin istiqaməti | Layihənin ümumi dəyəri (mln.manat) | İnvestisiya yardımı (mln.manat) |
|---|---|---|---|---|---|
| 1. | "Faber" firması | Bakı şəhəri, Ş.Məmmədov küçəsi, 71 "a" | Faner istehsalı | 521,17 | 184,.0 |
| 2. | "Avanqard Şou" şirkəti | Bakı şəhəri, 8 mar küçəsi, 5/4 | Çini qablara rəsmlərin çəkilməsi | 1074,8 | 210,0 |
| 3. | "Mehman" firması | Daşkəsən rayonu, Bayan kəndi | Mərmər istehsalı | 254,0 | 120,0 |
| 4. | "Laçın" kooperativi | İsmayıllı rayonu, Laçın qəsəbəsi | Misgərlik məmulatları istehsalı | 133,8 | 50,0 |
| 5. | "Fayton" kiçik müəssisəsi | Bakı şəhəri, 5-ci Talıblı küçəsi, ev 203, mən.47 | Sənaye soyuducuları istehsalı | 425,4 | 230,0 |
| 6. | "Gözəlçə" kiçik müəssisəsi | İsmayıllı rayonu, Nizami küçəsi | Süd məhsulları istehsalı | 284,66 | 95,0 |
| | **Cəmi:** | | | **2693,83** | **889,0** |

Azərbaycan Respublikasının Qanunvericilik toplusu .- 2000.- 30 noyabr, № 11.- S.4688-4689.